**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**

**BAKI DÖVLƏT UNİVERSİTETİ**

Əlyazması hüququnda

**AZAD FAİQ oğlu QASIMOV**

# AZƏRBAYCANDA MİLLİ İQTİSADİYYATIN FORMALAŞMASI VƏ İNKİŞAFINDA XARİCİ KAPİTALIN ROLU

**İxtisas:** 5308.01 – «Ümumi iqtisadiyyat»
5307.01 – «İqtisadi nəzəriyyə»

iqtisad üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim olunmuş dissertasiyanın

**AVTOREFERATI**

**Bakı - 2017**

Dissertasiya işi  Bakı Dövlət Universitetində  yerinə yetirilmişdir.

**Elmi rəhbər:** iqtisad elmləri doktoru,professor
**Məhərrəmov Amil Məmmədəli oğlu**

**Rəsmi opponentlər:** iqtisad elmləri doktoru, professor
**Hüseynov Məhərrəm  Cəlal oğlu**

iqtisad üzrə fəlsəfə doktoru, dosent
**Əhmədova Sədaqət Elman qızı**

**Aparıcı müəssisə:** **Azərbaycan Texniki Universitetinin «Sənaye iqtisadiyyatı və menecment» kafedrası**

Müdafiə «___» ______________ 2017-ci il tarixdə saat _____-da Bakı Dövlət Universitetinin nəzdində fəaliyyət göstərən iqtisad üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim olunan dissertasiyaların müdafiəsini keçirən FD.02.018 birləşdirilmiş dissertasiya şurasının iclasında aşağıdakı ünvanda olacaqdır.

Ünvan: AZ 1148, Bakı şəhəri, Akademik Zahid Xəlilov küçəsi, 23.

Dissertasiya işi ilə Bakı Dövlət Universitetinin kitabxanasında tanış olmaq olar.

Avtoreferat  «___» ______________ 2017-ci ildə göndərilmişdir.

**FD. 02.018  birləşdirilmiş dissertasiya şurasının elmi katibi, i.ü.f.d.** **H.S.Şamilova**

## İŞİN ÜMUMİ XARAKTERİSTİKASI

**Mövzunun aktuallığı.** Azərbaycan Respublikası artıq iyirmi beş ildən artıq bir müddətdə beynəlxalq iqtisadi münasibətlər sistemində özünəməxsus yer tutmuşdur. Respublikanın müstəqillik qazanması ona iqtisadi potensialından və təbii sərvətlərindən sərbəst bir şəkildə istifadə edə bilmək imkanını vermişdir. Hələ Sovet İttifaqının tərkibində olduğu illər ərzində Azərbaycan Respublikasının iqtisadiyyatı respublika səviyyəsində deyil, ittifaq dövlətinin tərkib hissəsi olması səbəbi ilə mərkəzdən nizamlanırdı. Təbii ki, burada bir məqamı xüsusilə vurğulamaq lazımdır ki, Azərbaycana Ümummilli lider Heydər Əliyevin rəhbərlik etdiyi dövrdə milli iqtisadi potensialın gücləndirilməsi, eləcə də yerli idarəçiliyin təkmilləşdirilməsi istiqamətində kardinal dəyişikliklər edildi. Azərbaycan iqtisadiyyatında ümummilli liderin konseptual yanaşmasının real təzahürü olaraq müxtəlif yeni sənaye müəssisələri yarandı, istehsalın keyfiyyəti yüksəldi. Azərbaycan Respublikasının kadr potensialının gücləndirilməsi istiqamətində böyük işlər görüldü. İqtisadiyyatın strukturunda və mahiyyətində baş verən dəyişikliklər ona gətirib çıxardı ki, Azərbaycan ixrac imkanlarına malik olan məhsulların istehsalına başladı. Respublikada müstəqilliyin ilk illərində investisiya mühiti xarici investorlar üçün cəlbedici deyildi. Dağlıq Qarabağ müharibəsinin getdiyi dövrdə xarici şirkətlər üçün zəmanət amilinin olmadığı bir şəraitdə ölkə iqtisadiyyatına hər hansı təməlli investisiyaların yatırılmasından söhbət gedə bilməzdi. Azərbaycanda möhkəm bir hakimiyyətin olmaması, Ermənistanın təcavüzünün davam etməsi xarici investisiyaların cəlbinin qarşısını alırdı. İnvestisiyaların məhdudluğu real sektoru da inkişafdan saxlayırdı. Respublikada sabitlik investorlar üçün önəmli məsələlərdən biri idi.1994-cü ildə Heydər Əliyevin rəhbərliyi ilə Azərbaycan iqtisadiyyatı üçün qlobal əhəmiyyətli layihə həyata keçirildi. «Əsrin müqaviləsi» imzalandı və xarici investisiyalar ölkəyə daxil oldu. İnvestisiyaların bu şəkildə ölkəyə gəlməsi Azərbaycan iqtisadiyyatının neft sektoru ilə bərabər digər sahələrini də hərəkətləndirdi. Çünki ölkəyə böyük miqdarda pul kütləsi daxil oldu. Pul kütləsi kapital və investisiyalar şəklində təzahür etdi. Respublika iqtisadiyyatına xarici investisiyaların cəlb edilməsi üçün münbit şərait 2003-2013-cü illər arasındakı onillik ərzində də gücləndi. Bu isə Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin iqtisadi siyasəti ilə bağlı idi. Təbii ki, bütün bunlar iqtisadiyyatın inkişafında öz xüsusiyyətləri ilə seçilən Azərbaycan Milli İqtisadi Modelinin nəticələri idi. Uğurlarla yanaşı, respublika iqtisadiyyatına xarici kapital qoyuluşları istiqamətində həllini gözləyən məsələlər də az deyildir. İnvestisiya sferası təsərrüfat mexanizminin təkmilləş-

dirilməsi prosesində mühüm rol oynadığından investisiya siyasətinin formalaşmasına daim diqqət artırılmalıdır. Azərbaycanın iqtisadiyyatına xarici investisiyaların axını ölkənin ixracat potensialının genişləndirilməsinə, istehsalın inkişafına, əmək ehtiyatlarından tam və səmərəli istifadə edilməsinə, sahibkarlıq sahəsində müasir bazar münasibətlərinin mənimsənilməsinə, yeni texnologiyanın ölkəyə gətirilməsinə və bütövlükdə ölkənin iqtisadi infrastrukturunun yenidən qurulmasına təsir göstərir. Məhz bu baxımından Azərbaycan milli iqtisadiyyatının formalaşması və inkişafında xarici kapitalın rolunun öyrənilməsi olduqca aktual bir məsələdir. Çünki Azərbaycan iqtisadiyyatına qoyulan xarici kapitalın artması müxtəlif istiqamətlər üzrə investisiyaların hərəkət dinamikasını yüksəldə bilər. Bütün bunlar dissertasiyanın mövzusunun aktuallığını şərtləndirən amillərdəndir.

**Problemin öyrənilmə səviyyəsi**. Problemin ayrı-ayrı aspektləri və parametrləri Azərbaycan alimlərindən A.A.Nadirov, T.Ə.Hüseynov, Z.Ə.Səmədzadə, X.S.Abdullayev, Ə.İ.Bayramov, E.Cəfərli, E.Əliyev, N.N.Əliyev, İ.R.Səlimzadə, N.Ə.Həsənov, F.K.Həşimov, A.Məhərrəmov, M.Hümbətov, F.Hüseynov, F.Hüseynzadə, İ.Məmmədli, İ.Quliyev, İ.Mahmudov, S.Ə.Məmmədov, Z.F.Məmmədov, V.Mirzəcanlı, M.Hüseynov, B.Mirzəyev, İ.Orucov, E.Rüstəmov, T.Tağıyev, C.B.Namazova, X.Mahmudova, S.Əhmədova xarici müəlliflərdən M.Kurt, A.Söylemez, M.M.Boquslavski, S.M.Bratus, D.David, D.Driskoll, B.Lomakin, D.K.Labin, V.F.Maksimova, R.Payps, S.V.Polenina, E.Rode, İ.Z.Faxrutdinov və başqaları tərəfindən tədqiq edilmiş və öyrənilmişdir.

**Tədqiqatın məqsəd və vəzifələri**. Tədqiqat işinin ***əsas məqsədi*** Azərbaycanda milli iqtisadiyyatın formalaşması və inkişafında xarici kapitalın rolunu müəyyən etməkdən ibarətdir.

Qarşıya qoyulmuş məqsədə nail olmaq üçün aşağıdakı ***vəzifələr*** yerinə yetirilmişdir:

- Kapital anlayışı və onunla bağlı müxtəlif aspektləri nəzəri olaraq araşdırmaq;
- Kapitalın beynəlxalq hərəkətinin səbəblərini, ona təsir edən amilləri və formalarını tədqiq etmək;
- Kapitalın beynəlxalq hərəkətinin reallaşma istiqamətlərini öyrənmək;
- Azərbaycanın milli iqtisadiyyatının inkişafında xarici investisiyaların rolunu araşdırmaq;
- Azərbaycana investisiyaların cəlb edilməsinə təsir edən strateji amilləri müəyyən etmək;
- Azərbaycan iqtisadiyyatına xarici investisiya qoyuluşlarının inkişaf meyillərini təhlil etmək;

– Qeyri-neft sektorunda innovasiya yönümlü sahələrin inkişafında xarici kapitalın rolunu müəyyən etmək;

– Azərbaycanda xarici investisiyalardan istifadənin səmərəliliyinin artırılması yollarını araşdırmaq;

– Azərbaycan iqtisadiyyatına investisiya qoyuluşlarının dövlət tənzimlənməsi mexanizmlərinin təkmilləşdirilməsi istiqamətində elmi təkliflər və tövsiyələrlə çıxış etmək.

**Tədqiqatın obyektini**Azərbaycan Respublikasının milli iqtisadiyyatı, daxili və xarici investisiya potensialı təşkil edir.

**Tədqiqatın predmetini**Azərbaycanın milli iqtisadiyyatının formalaşması və inkişafında xarici kapitalın (investisiyaların) cəlb edilməsi problemləri təşkil edir.

**Tədqiqatın nəzəri və metodoloji əsasları**. Tədqiqat işinin nəzəri əsasını yerli və xarici ölkələrin iqtisadçı alimlərinin əsərləri, Azərbaycan Respublikasının bu sahədə qüvvədə olan qanunları, Dövlət Proqramları, Əsasnamələr və digər normativ-hüquqi aktlar təşkil edir. Bank sistemi, real sektor, investisiyalar, inteqrasiya prosesləri, infrastruktur layihələri, islahatlar və s. əks etdirən müddəalar tədqiqatın metodoloji əsasını təşkil edir. Tədqiqat prosesində iqtisadi-statistik, monoqrafik, məqsədli-proqram, sistemli yanaşma, təhlil və sintez, ümumiləşdirmə, induksiya, deduksiya və s. metodlardan istifadə edilmişdir.

**Tədqiqatın informasiya bazası**. İşdə Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyi və Maliyyə Nazirliklərinin, Dövlət Statistika Komitəsinin, Əmlak Məsələləri üzrə Dövlət Komitəsinin, AR Mərkəzi Bankının, Azərbaycan Respublikası Dövlət Neft Fondunun, Azərbaycan İnvestisiya Şirkətinin, Sahibkarlığa Kömək Milli Fondunun, kommersiya qurumlarının statistik normativ-arayış və texnoloji sənədlərindən, internet resurslarından istifadə olunmuşdur.

**Tədqiqatın elmi yeniliyi**. Tədqiqat prosesində əldə edilmiş elmi yeniliklər aşağıdakılardır:

- investisiyaların iqtisadi və substansional mexanizmi araşdırılmışdır;
- ölkə iqtisadiyyatına xarici kapital qoyuluşunun genezisi və təkamül mərhələləri tədqiq edilmiş və onun müasir inkişaf meyilləri göstərilmişdir;
- xarici investisiya qoyuluşlarının keyfiyyət və istiqamət xarakteristikası və onun iqtisadi parametrlər sistemi müəyyən edilmişdir;
- ölkə iqtisadiyyatının tələbatının artdığı şəraitdə investisiya və xarici kapital axınının bütün formalarından səmərəli istifadəyə dair təklif və tövsiyələr irəli sürülmüşdür;
- müxtəlif sahələr üzrə investisiya qoyuluşları riskinin fərqləndirici xüsusiyyətləri göstərilmiş və investisiya qoyuluşlarının daha mütərəqqi

metodları irəli sürülmüşdür;

- investisiya qoyuluşlarına dair dünya təcrübəsinə müraciət edilmiş, xarici və yerli maliyyə mənbələri əsasında kapital qoyuluşlarının üstünlükləri və fərqləndirici xüsusiyyətləri müəyyən edilmişdir;
- xarici investisiyaların iqtisadiyyatın şaxələndirilməsinə yönəldilməsi, xarici və daxili kapitaldan istifadənin optimallaşdırılması metodları təklif edilmişdir.
- kontrtsiklik makroiqtisadi siyasətin konturları müəyyən edilmişdir;

**Tədqiqatın nəzəri və təcrübi əhəmiyyəti**. Dissertasiya işində irəli sürülən nəzəri-metodik müddəalar və təcrübi tövsiyələr ali məktəblərdə «Azərbaycan iqtisadiyyatı» fənninin tədrisində, Azərbaycan Respublikası iqtisadiyyatına struktur investisiyaların cəlb edilməsində, bütövlükdə respublika iqtisadiyyatında aparılan islahatlarında istifadə oluna bilər.

**İşin aprobasiyası və nəticələrinin tətbiqi**. Tədqiqatın nəticələri Bakı Dövlət Universitetində, Azərbaycan Milli Elmlər Akademiyasının İqtisadiyyat İnstitutunda, müxtəlif treninq və elmi nəşrlərdə dərc edilmişdir. Dissertasiya işi ilə əlaqədar olaraq müəllifin 2 məqaləsi xaricdə olmaqla, 10 məqaləsi və 2 tezisi çap olunmuşdur.Dissertasiyanın əsas müddəaları və nəticələri BP Eksploreyşn (Kaspian Sİ) Limited şirkəti tərəfindən istifadə üçün qəbul olunmuşdur (Arayış № P&RA/RB/143, 29sentyabr, 2017).

**Dissertasiyanın həcmi və quruluşu**. Dissertasiya işi «Giriş», üç fəsil, nəticə, 113 adda mənbənin daxil olduğu ədəbiyyat siyahısından ibarət olub, 140 səhifəni əhatə edir.

## İŞİN ƏSAS MƏZMUNU

**Girişdə** dissertasiya işininaktuallığı əsaslandırılır, problemin öyrənilmə səviyyəsi, tədqiqatınməqsədi və vəzifələri,obyekti və predmeti göstərilir, həmçinin işin elmi yeniliyi, praktiki əhəmiyyətivə aprobasiyası şərh edilir.

Dissertasiyanın **birinci fəsli "Kapital və onun beynəlxalq hərəkətinin nəzəri-metodloji əsasları və praktiki istiqamətləri"** adlanır. Burada kapital anlayışı və onunla bağlı müxtəlif nəzəri aspektlərə yanaşmalara toxunulur. Müxtəlif iqtisadi məktəblər kapital haqqında fikirlər ortaya qoyaraq məsələnin nəzəri bazasının gücləndirilməsi və inkişaf etdirilməsi istiqamətində əhəmiyyətli töhfələr vermişdirlər. Fiziokratların kapital haqqında olan nəzəriyyələri isə böyük əhəmiyyət kəsb edir. Merkantilistlər kapital ilə pulu eyniləşdirdikləri halda fiziokratlar kapitalın əşya tərkibini təhlil etmişlər. İstehsal xərclərinin təhlili F.Keneyə imkan verirdi ki, kapitalın tərkib hissələrini ayıra bilsin. Əkinçilik işlərinə hər il sərf edilən xərcləri F.Kene illik avans adlandırırdı (toxum, iş qüvvəsi). Kapital və

onun mahiyyəti haqqında ilkin düşüncələri ortaya qoyan alimlərdən biri də Adam Smitdir. A.Smit ölkənin iqtisadi inkişafının təmin edilməsində kapitalın rolu haqqında belə yazırdı: «Əgər biz bir xalqın həyatının iki dövrünü müqayisə edərək görsək ki, onun torpaqlarının və əməyinin hazır məhsulu artır, torpaqlar daha yaxşı becərilir, manufakturaların sayı çoxalır və onların qazancı artır, ticarət əlaqələri genişlənir, deməli, xalqın sərvəti bu iki dövr arasında artmışdır...». Beləliklə, A.Smit kapitalın milli səviyyədə artımını xalqın sərvətinin artımı ilə əlaqələndirir. Kapitalla bağlı olan nəzəri araşdırmalardan danışarkən K.Marksın «Kapital» əsərinə müraciət edilməlidir. K.Marks «Kapital» əsərində göstərirdi ki, kapital tarixi forma daşıyan müəyyən bir ictimai münasibətdir və bu münasibətlər kapitalist istismarını ifadə edir. K.Marks «Kapital» əsərində izafi dəyər istehsalının təhlili göstərir ki, kapital keçmiş əməkdir.

Neoklassiklərdən J.Şumpeterə görə, «kapital sahibkarın əlində ona lazım olan sərvəti mənimsəmək, öz sərəncamına almaq, istehsalı yeni istiqamətə yönəltmək üçün vasitədən başqa bir şey deyildir». Müasir nəzəriyyəçilərin çoxu istehsal vasitələrinin kapital olması haqqında klassiklərin fikirlərini bu və ya digər formada davam etdirirlər. Pol Samuelsonun fikrincə «kapital yeni əmtəələrin istehsalı üçün iqtisadiyyatın yaratdığı uzun müddət istifadə olunan nemətlərdən ibarətdir». Amerika Birləşmiş Ştatlarının məşhur iqtisadçı alimləri Pol.A.Samuelson və Vilyam D.Nordahus özlərinin «İqtisadiyyat» dərsliyində insan kapitalını «təhsil və ixtisaslı hazırlığa qoyulmuş kapital sayəsində işçi qüvvəsində toplanılmış texniki bilik və bacarıqlar ehtiyatı» kimi qiymətləndirmişlər. Bununla yanaşı, həmin ölkənin Haarvard Universitetinin professoru N.Qreqori Mənkyu «İqtisadiyyatın əsasları» dərsliyində insan kapitalını «Təhsil və iş zamanı əldə edilən biliklər formalaşmasında insanda toplanmış investisiyalar» kimi dəyərləndirmişdir. «Müasir ekonomiks»in müəlliflərinə (İ. Jack Harvey və E. Jorusey) görə isə «kapital hər hansı bir anda mövcud olan ehtiyatdır. Kapital digər sərvətlərin istehsalı üçün insan tərəfindən yaradılmış sərvətdir». Kapitalın mahiyyətini başqa cür izah edənlər də vardır. Məsələn, S.Fişer, D.Beqq, R.Dornbuş və başqalarına görə, pul kapitaldır. Onlar da merkantilistlərin fikirlərini təkrar etmişdir.

Müasir dövrdə «insan kapitalı» anlayışından da geniş istifadə olunur. 1960-cı illərdə insan kapitalı amili tədqiqatçıların diqqət mərkəzində idisə, 1980-lərdə sosial kapital məsələsi önə çıxmağa başladı. Həmin dövrdən ailə araşdırmalarından, gənclərin davranışlarından başlayaraq təhsilə maraq, cəmiyyətdə müəyyən dəyərlərin qorunması, insanlar arasında etimad və s. məsələlər araşdırılarkən sosial kapital anlayışı aktuallıq kəsb etməyə başladı. Amma bu terminə elmi ədəbiyyatlarda hələ 1920-ci illərdə Veberin əsərlərində, daha əvvəllər isə bir sıra

filosofların əsərlərində rast gəlinmişdir. 1916-cı ildə L.Hanifan sosial kapitalın təhsilin keyfiyyətinin artmasına təsirini araşdırmış, 1956-cı ildə Seely, Sim və Looseyin (1956) tədqiqatlarında da sosial kapital mövzusuna toxunulmuşdur. 1980-ci illərdən başlayaraq, sosial kapital mövzusu daha geniş araşdırılmağa başlandı. Həmin dövrdə Pierre Bourdieunun (1983, 1986), J.Colemanın (1988, 1990) bu mövzuda apardıqları tədqiqatlar indi ən çox istinad edilənlər arasındadır. P. Bourdieu və J.Colemandan sonra 1993-cü ildə R.Putnamın İtaliyada regional inkişaf məsələləri ilə bağlı tədqiqatı sosial kapital məsələsi üzərində qurulmuş və geniş müzakirələrə səbəb olmuşdur. Sosial kapitalın formalaşması və inkişafı, faydaları, iqtisadi inkişafa təsirlərini araşdıran alimlərin fikirləri tədqiqat işində təhlil olunmuşdur.

Baxılan məsələlərdən biri də sosial kapitalın ölçülməsi ilə bağlıdır. Sosial kapitalın qiymətləndirilməsi üçün geniş yayılmış üsullardan biri sorğulardır. Təhlil üçün istifadədə ən geniş yayılmış sorğulardan Dünya Dəyərlər Sorğusu (World Values Survey) və Avropa Dəyərlər Sorğusunu (EVS) qeyd etmək olar. Sorğunun təhlili vasitəsilə ölkələr və ya regionlar üzrə sosial kapital haqqında ilkin fikir formalaşır. Tədqiqat işində sosial kapitalın digər qiymətləndirmə üsulu olan empirik yanaşmaya da baxılmışdır. Buraya isə makro (Olson 1982, North 1990) və mikro (Uphoff 1996) səviyyədə araşdırmaları əhatə etməklə, diqqəti cəlb edən fikirləri aid etmək olar.Fransız alimi Pierre Bourdieuya (1983, 1986) görə sosial kapital 3 əsas kapital növündən (iqtisadi, mədəni və sosial kapital) biridir. İqtisadi kapital birbaşa pula çevrilə bilir və mülkiyyət hüququ kimi institusionallaşır. Mədəni kapital müəyyən şərtlər daxilində iqtisadi kapitala çevrilir və təhsil üzrə institusionallaşır. Sosial kapital isə əlaqələrdən formalaşır və müəyyən şərtlər daxilində iqtisadi kapitala konvertasiya olunaraq, instusionallaşır. Bourdieuya görə, sosial kapitalı imtiyazlı sinfə məxsus kapital hesab etmək olar və bu onların öz üstünlüklərini qorumaq üçün istifadə etdikləri alətdir. Amma o, sadə qonşuluq münasibətlərindən başlayan sosial kapitalı daha təhlükəsiz və dayanıqlı hesab etmişdir. P.Bourdieu hesab edir ki, sosial kapital digər kapital növləri ilə sıx bağlıdır. İyerarxiyadan asılı olaraq onun fayda götürmək, sui-istifadə etmək kimi mənfi təzahürləri də ola bilər. Bourdieya görə sosial kapital investisiya qoymaq, şəxsi maraqları qarşılamaq üçün lazımi əlaqələri qurmaqdan ibarətdir. Beləliklə, P.Bourdieu hesab edir ki, sosial kapital qarşılıqlı etimad münasibətlərinə əsaslanan, az və ya çox dərəcədə institusionallaşmış, dayanıqlı şəbəkəyə malik real və potensial resursların məcmusudur.Ceyms Koleman (1988, 1990) sosial kapital anlayışını Amerikada tələbələrin təhsillərinin uğurlu olması və ya yarımçıq qoymaları

səbəbləri kontekstində tədqiq etmişdir. O, məsələnin kökünün maddi (maliyyə), insan və sosial kapitalda olduğunu qəbul etmişdir. Onun fikrincə, maddiyyat təhsilin iqtisadi mənbəyini, insan kapitalı ailənin təhsilə olan maraq və tələbini, sosial kapital isə həm ailə daxili, həm də ailə-məktəb münasibətlərini formalaşdırır. Tədqiqatın nəticəsinə görə, təhsilini tamamlamayan tələbələrin bu addımı atmasına səbəb yalnız maddi və insan kapitalı deyil. Əsas səbəblərdən biri də sosial kapitaldır. Bourdieudan fərqli olaraq,Koleman sosial kapitalı təkcə elit təbəqəyə aid etmir. Onun fikrincə, sosial kapital ictimai rifaha xidmət edir və təhsildən başlayaraq dövlət idarəetməsinə qədər bir çox problemlərin həllində aparıcı qüvvə ola bilər. Kolemana görə, sosial kapital məhsuldar resurs rolunu oynayan və qeyri-formal əlaqələrdən yaranan sosial təşkilatdır.Robert Putnama (1993) görə, sosial kapital ortaq hədəflərə nail olmaq üçün insanların birgə hərəkət etməsini təmin edən inam, etibar, sosial normalardan ibarət qeyri-formal institutdur. Putnam şəxsi maraqlar üzərində qurulan sosial kapitalı qəbul etmir və yalnız ictimai maraqlara xidmət edən sosial kapitalı üstün tutur. Fərdlərin müəyyən ideyalar naminə qruplaşması inam, qarşılıqlı etibar hesabına baş verməlidir.Amerika iqtisadçısı C.Klark qeyd edirdi ki, "Kapitalın tərkibinə istehsal vasitələri aiddir və onlar həmişə konkret və maddidir. Biz işçilərin əldə edilmiş qabiliyyət və bacarıqlarını məhsuldar sərvətin mövcud fondunun bir hissəsi kimi qəbul etmirik. İnsan faydalı peşə üçün təlim və ya təhsilinə pul xərcləməsi hesabına özünün kapitalını artıra bilməz. Bu zaman onun əldə etdiyi biliklər, sözsüz ki, onun məhsuldar qüvvəsini artırır və həmçinin bu bilikləri əldə edərkən o, müəyyən məhrumiyyətlərə əməl etməyə məcbur olur. O, əvvəlkinə nisbətən daha çox istehsal etmək bacarığına malik olması üçün özünü müəyyən məmnunluqdan məhrum edir." Bu baxımdan, qəbul edilməlidir ki, texniki təhsilə pul xərclənməsi ilə əmək alətlərinin alınmasına pul xərclənməsi arasında müəyyən oxşarlıq vardır. Lakin bu termini istifadə edərkən, biz dəqiq şərhçi kimi təkid edəcəyik ki, insanın istehsal məqsədləri üçün istifadə etdiyi özünün keyfiyyət xüsusiyyətləri kapitala daxil deyildir.

Burada həmçinin qeyd edilir ki, dünya təsərrüfatının inkişafının müasir mərhələsində beynəlxalq iqtisadi münasibətlərin inkişafına təsir edən əsas amillərdən biri kimi kapital ixracı, onun beynəlxalq hərəkəti çıxış edir. Kapitalın beynəlxalq hərəkəti beynəlxalq iqtisadi münasibətləri gücləndirərək dünya iqtisadiyyatını bütövlükdə və eləcə də onun ayrı-ayrı sahələrini hərəkətləndirir. Beynəlxalq iqtisadi mübadilə və qarşılıqlı təmasın gücləndirilməsi prosesində iqtisadi imperativlər digər imperativlərin önünə keçir. Burada onu vurğulamaq yerinə düşərdi ki, beynəlxalq miqyasda kapitalın hərəkəti ümumən pozitiv bir

reallıqdır. Ancaq onun pozitiv tərəflərinin qorunması milli iqtisadi siyasətin məqsədyönlü qurulmasından və milli iqtisadi maraqların nəzərə alınmasından ciddi şəkildə asılıdır. Burada onu da vurğulamaq lazımdır ki, beynəlxalq kapital hərəkətlərinin istiqamətləri stabil olmur, müəyyən şərtlərin və reallıqların dəyişməsi ilə dəyişir.

Beynəlxalq iqtisadi proseslərdə önəm daşıyan məsələlər sırasında xüsusi ilə qeyd ediləsi məsələ, kapitalın beynəlxalq hərəkətinin reallaşma istiqamətləridir. Bu proses ölkələrin iqtisadi qüdrətinə, dünya bazarının formalaşmasına, əmtəə və xidmətlərin yerdəyişməsinə birbaşa təsir edir. Bütün bunlara əsaslanaraq onu söyləmək olar ki, kapitalın beynəlxalq hərəkətinin istiqamətləri həm də dünya iqtisadiyyatının inkişaf istiqamətlərini görməyə imkan verir. Kapitalın beynəlxalq hərəkəti prosesi kifayət qədər dinamikdir və o hazırda bir sıra yeni xüsusiyyətlər kəsb etmişdir.

**"Azərbaycan iqtisadiyyatına investisiyaların cəlb olunmasının mövcud vəziyyəti"** adlı ikinci fəsildəmilli iqtisadiyyatın inkişafına investisiyaların cəlb edilməsinin müasir vəziyyəti və rolu tədqiq edilir. Azərbaycan Respublikasının iqtisadi inkişafının öyrənilməsində önəmli istiqamətlərdən biri də, ölkə iqtisadiyyatına kapital qoyuluşlarının tədqiq edilməsidir. Azərbaycan Respublikasının iqtisadi prosesləri tənzimləyən qanunvericilik bazası kapital qoyuluşları məsələlərini də ehtiva etməkdədir. İnvestisiya ilə müxtəlif xüsusiyyətlərinə görə oxşar cəhətlərə malik olan kapital qoyuluşu xüsusi bir istiqamət kimi fərqləndirilir. Belə ki, «İnvestisiya fəaliyyəti haqqında» Azərbaycan Respublikasının qanununa əsasən, əsas fondların yaradılmasına və təkrar istehsalına, habelə maddi istehsalın digər formada inkişafına investisiya, kapital qoyuluşları formasında həyata keçirilir.

**Cədvəl 1**

**İqtisadiyyata kredit qoyuluşları (ilin axırına, mln. manat)**

| **İqtisadiyyata kredit qoyuluşları** | **2011** | **2012** | **2013** | **2014** | **2015** | **2016** |
|---|---|---|---|---|---|---|
| | **9 850,3** | **12 243,7** | **15 422,9** | **18 542,6** | **21 730,4** | **16 444,6** |
| *onlardan*: | | | | | | |
| qısa müddətli | 2 951,2 | 3 508,3 | 3 335,5 | 3 931,3 | 5 297,3 | 3 478,0 |
| yekuna görə, faizlə | 30,0 | 28,7 | 21,6 | 21,2 | 24,4 | 21,1 |
| uzun müddətli | 6 899,1 | 8 735,4 | 12 087,5 | 14 611,3 | 16 433,1 | 12 966,6 |
| yekuna görə, faizlə | 70,0 | 71,3 | 78,4 | 78,8 | 75,6 | 78,9 |

2016-cı ildə respublikamızda əsas kapitala 14,9 milyard manat məbləğində, yaxud 2015-ci illə müqayisədə 26,1 faiz az vəsait yönəldilmişdir. Azalmanın bir sıra səbəbləri vardır. Belə ki, ötən illərdə, o cümlədən 2015-ci ildə əsas kapitala yatırılan vəsait müvafiq ehtiyacları ödəyə bilmişdir. Bir çox sahələrdə fəaliyyətin təməlini təşkil edən istehsal vasitələrinə yönəldilən kapital onların hər il külli miqdarda yenilənməsinə ehtiyac hiss etdirmir. Yönəldilən vəsaitlər isə əsas etibarilə bərpa işlərinə, istehsal prosesində mövcud olan itkilərin yerinin yeniləri ilə təmin edilməsinə istiqamətləndirilir.

Respublikada investorların hüquq və mənafelərinin qorunması, mülkiyyətin toxunulmazlığı, yerli və xarici sahibkarlara eyni iş şəraitinin yaradılması, əldə edilmiş mənfəətdən maneəsiz istifadə olunması ilə bağlı mühüm qanunlar qəbul edilərək hüquqi baza yaradılmışdır. Azərbaycan hökumətinin bir sıra xarici ölkələrlə ikiqat vergi tutmanın aradan qaldırılması, investisiyaların təşviqi və qarşılıqlı qorunması haqqında sazişlərin imzalanması işinin davam etdirilməsi xarici investorların, beynəlxalq maliyyə qurumlarının və iqtisadi təşkilatların Azərbaycana olan marağını daha da artıracaq. Son illərin tendensiyasına əsasən, qeyri-neft sektoru üzrə yönəldilmiş investisiyaların həcmi neft sektoru üzrə yönəldilmiş investisiyaların həcmini üstələyir. Qeyri-neft sektorunda fəaliyyət göstərən birgə və xarici investisiyalı müəssisələri cəlb edən əsas sahələr sənaye, tikinti, nəqliyyat və ticarətdir.

Azərbaycan iqtisadiyyatına birbaşa investisiya daxilolmaların araşdırılmasınıiki mühüm komponentə bölmək olar.Onlardan biri xarici investorların yüksək mənfəət götürməsi məsələlərinin, digəri isə, Azərbaycan iqtisadiyyatı üçün daha vacib və önəmli olan milli iqtisadiyyat sahələrinin beynəlxalq rəqabət qabiliyyətinin artırılmasını qarşılıqlı əlaqə və şərtlənmə halında inkişaf etdirilməsinin araşdırılmasından ibarətdir. Araşdırmanı birtərəfli, yəni yalnız investorların mənafelərinin reallaşması, daha çox mənfəət götürməsi baxımından qiymətləndirsək, bu yüksək reinvestisiya məvacibinin artmasına, milli iqtisadiyyat sahələrinin xaricilərlə müqayisədə geriləməyə doğru aparacaqdır. Real gerçəklik belədir ki, həmin hal yalnız birbaşa xarici investisiyalara kömək edir. Yəni, Azərbaycanın milli iqtisadiyyatının sahələri və bu sahələri təmsil edən şirkətlərin birbaşa xarici investisiyalı müəssisələrin buraxdığı məhsulların istehlakçılarına çevrilməsi prosesi daha da güclənir. Birbaşa xarici investisiyalı müəssisələr Azərbaycanın daha çox xammal və enerji daşıyıcılar sektoruna, müəyyən qədər isə telekommunikasiya sahələrinə meylli olduqlarından son emal və hazır məhsullar istehsalı sahələrinin inkişafına investisiya yatırımları ikinci dərəcəli

mövqeyə keçir. Bununla milli iqtisadiyyatda son emal və hazır məhsulların nəinki xarici və habelə daxili bazarda da rəqabət qabiliyyəti formalaşa bilmir. Daxili və xarici bazarlarda iqtisadi rəqabətin güclənməsi, maliyyə-təsərrüfat əməliyyatlarının qeyri-sabitliyi Azərbaycan dövlətini sabit iqtisadi artımın daha səmərəli yollarının tapılmasına doğru əsaslı addımlar atmasına sövq edir. Bunun üçün ölkədə milli təsərrüfat sahələrinin rəqabət üstünlüklərinin potensial imkanlarından yararlanmaqla, eyni zamanda milli sənayenin modernləşdirilməsi və rəqabətqabiliyyətli məhsullar istehsal etmək məqsədilə xarici birbaşa investisiyaların, onların qabaqcıl texnika və texnologiyalarının əldə edilməsi üzrə tədbirləri kifayət qədər tez reallaşdırmaq lazım gəlir.

Milli iqtisadiyyatın neft və qeyri-neft sektoruna yatırılan birbaşa xarici investisiyaların inkişaf meyllərinə baxdıqda görmək olur ki, ölkənin neft sektoruna yatırılan investisiyalar özünü tədricən doğrultduğundan qeyri-neft sektoruna, xüsusən iqtisadiyyatın emal, hazır məhsullar istehsalı və xidmət sahəsinə də xarici investisiyaların yatırılmasına maraq artmaqdadır. Aşağıdakı cədvəllərdə biz neft və qeyri-neft sektoruna investisiya qoyuluşlarının ümumi mənzərəsi ilə tanış ola bilərik (Cədvəl 2, 3).

**Cədvəl 2**

**Ümumi daxili məhsulun həcmi, cari qiymətlərlə, milyon manatla**

| Ümumi daxili məhsul | İllər | | | |
|---|---|---|---|---|
| | **2012** | **2013** | **2014** | **2015** |
| **cəmi** | **54 743,7** | **58 182,0** | **59 014,1** | **54 352,1** |
| o cümlədən: | | | | |
| neft-qaz sektoru | 24 487,3 | 23 778,1 | 21 405,2 | 15 346,2 |
| qeyri-neft sektoru | 26 864,4 | 30 525,9 | 33 195,9 | 34 500,9 |
| məhsula və idxala xalis vergilər | 3 392,0 | 3 878,0 | 4 413,0 | 4 505,0 |

Bunun nəticəsidir ki, dünyanın ən aparıcı beynəlxalq maliyyə təşkilatları: Dünya Bankı, Beynəlxalq Valyuta Fondu, İslam Bankı, Beynəlxalq Əməkdaşlıq üzrə Yaponiya Bankı, Avropa Yenidənqurma və İnkişaf Bankı və digərləri Azərbaycana böyük həcmdə xariciinvestisiya formasında kreditlər ayırmışlar.

2000-2013-cü illərdə Azərbaycana investisiya formasında verilən kreditlərin ümumi məbləği 15.0 milyard dolları keçmişdir. Azərbaycan iqtisadiyyatına 2000-2013-cü illər ərzində yatırılan ümumi investisiyaların

məbləğinin sürətlə artması ilə yanaşı,respublika tərkibində daxili investisiyalar xaricdən gələn investisiyalarla müqayisədə daha sürətlə artmışdır. Müqayisə üçün real vəziyyəti nəzərdən keçirdiyimizdə həmin artım sürəti daxili investisiyaların xeyrinə 5,6% təşkil etmişdir. Bu hal son illərdə Azərbaycanda milli investorların daha güclü formalaşmasının, onların yatırdıqları investisiyaların həcminin sürətlə artmasının nəticəsidir. Xarici investisiya yatırımlarının strukturuna fikir verdikdə və həmin strukturun kəmiyyət müəyyənliyinin araşdırılması nəticəsində daxili reallığı üzə çıxar-dıqda aydın olur ki, son illərdə ölkənin iqtisadiyyatına cəlb edilən beynəlxalq kreditlərlə bağlı, xarici investisiya qoyuluşları ilə yanaşı birbaşa investisiya qoyuluşları da sürətlə artmaqdadır. Belə ki, 2000-2005-ci illərdə beynəlxalq kreditlər 2,7 dəfə (261,9 mln. dollardan 698,4 mln. dollara), 2005-2010-cu illərdə 4,8 dəfə artım (698,4 mln. dollardan 3405,9 mln. dollara), 2010-2012-ci illərdə isə enmə (3405,9 mln. dollardan 3135,5 dollara) baş vermişdir.

**Cədvəl 3**

**ÜDM-in artım sürəti, əvvəlki ilə nisbətən, faizlə**

| **Ümumi daxili məhsul** | **İllər** | | | |
|---|---|---|---|---|
| | **2012** | **2013** | **2014** | **2015** |
| **cəmi** | **102,2** | **105,8** | **102,8** | **101,1** |
| o cümlədən: | | | | |
| neft-qaz sektoru | 95,0 | 101,0 | 97,1 | 101,2 |
| qeyri-neft sektoru | 109,7 | 110,0 | 107,0 | 101,1 |
| məhsula və idxala xalis vergilər | 106,9 | 108,5 | 104,9 | 103,6 |

Birbaşa investisiya qoyuluşlarının həmin illərdə daha sürətlə artıb-azalması baş vermişdir. Belə ki, 2000-2005-ci illərdə artım sürəti 6,9 dəfə (546,1 mln. dollardan 3799,9 dollara), 2005-2010-cu illərdə isə 23% enmə (3799,9 mln. dollardan 2955,3 dollara), 2010-2012-ci illərdə isə artaraq (2955,3 dollardan 4287,8 dollara) yüksəlmişdir. Rəqəmlər göstərir ki, son illərdə Azərbaycan iqtisadiyyatına yönəldilən xarici investisiyaların tərkibində beynəlxalq kreditlərin həcminin artmasını, birbaşa investisiyaların isə azalmasını hər şeydən əvvəl birbaşa investisiyalara tələbatın aşağı düşməsi ilə əlaqələndirmək olmaz.

Burada ölkəmizin iqtisadiyyatına, xüsusən onun neft sənayesinə yatırılmış uzunmüddətli birbaşa investisiyaların tədricən həm istismarı proseslərinin və həm də milli iqtisadiyyatın digər sahələrindəki proseslərin beynəlxalq kreditlərlə təminatına tələbatın artması nəzərdə tutulmalıdır. Dünyanın bir çox xammal ixracatçısı olan ölkələrinin təcrübəsində xammal

və enerji daşıyıcıların ixracından götürülən gəlirlərin, ölkə iqtisadiyyatının qeyri-neft sektorunun gələcək inkişafı üçün bir tərəfdən ehtiyat və sabitləşdirmə, digər tərəfdən isə gələcək nəsillər fondu deyilən yığım ehtiyatları formalaşdırılmışdır. Belə yığımla vəsaitləri müvəqqəti akkumulyasiya etməklə uzun müddətli və böyük həcmdə investisiya qoyuluşu tələb edən aqrar sektorun və bu sektorla sıx bağlı olan sənayenin, maşın və avadanlıqlar istehsal edən və aqrar sektorun məhsullarını emal edən sahələrin əsaslı yeniləşdirilməsi istiqamətində sərf etmək mümkündür. Sözsüz ki, qeyri-neft sektorunun inkişafında ölkədə ekoloji tarazlığın qorunması məqsədilə dövlət vəsaitlərindən istifadə etməklə təbiətin qorunması, insan kapitalının formalaşması üçün təhsilin və elmin inkişafı, innovasiyalı iqtisadiyyatın formalaşması ön sırada dayanır.

Dissertasiyanın üçüncü fəsli **“Azərbaycan milli iqtisadiyyatına xarici investisiya qoyuluşlarının qiymətləndirilməsi və təkmilləşdirilməsi”**adlanır. Qeyri-neft sektoru üzrə innovasiya yönümlü sahələrin inkişafında xarici kapitalın rolu burada araşdırma prioritetidir.Xarici investisiyaların cəlb edilməsi və xarici ticarətin genişləndirilməsi Azərbaycan Respublikasının xarici iqtisadi əlaqələrinin əsas prioritetləri sırasında olmaqla, ölkənin iqtisadi potensialının gücləndirilməsi üçün mühüm amilləri təşkil edir. Azərbaycan hökuməti tədricən neft-qaz sektoruna nisbətən qeyri-neft sektorunun sürətli inkişafına daha çox dəstək vermək strategiyasını reallaşdırmağa səy göstərir. Bunun üçün birbaşa xarici investisiyaları milli iqtisadiyyatın qeyri-neft sektoruna istiqamətləndirməyi prioritet vəzifə kimi qarşıya qoyur. Yəni neft sektorunun milli iqtisadiyyatda böyük xüsusi çəkiyə malik olması heç də, mütləq (əbədi) bir proses olmadığı üçün həmin sahənin ilkin üstünlüklərindən hərtərəfli faydalanmaq lazımdır. Bu mənada Azərbaycan neft sektorundan əldə etdiyi gəlirlərlə milli iqtisadiyyatın digər sahələrini inkişaf etdirmək imkanına malik olmalıdır. Xarici investisiyaların coğrafiyası da genişdir. Belə ki, Azərbaycana investisiya yatıran xarici ölkələr siyahısının ilk onluğunda Böyük Britaniya, ABŞ, Yaponiya, Norveç, Türkiyə, Fransa, Çexiya, Almaniya, Səudiyyə Ərəbistanı və Rusiya kimi ölkələr qərarlaşmışdır. Ölkə iqtisadiyyatının qeyri-neft sektoruna ən çox investisiya yatıran xarici ölkələrin sırasında isə Türkiyə, ABŞ, Böyük Britaniya, Almaniya, Birləşmiş Ərəb Əmirlikləri, Fransa və Rusiyanı qeyd etmək olar. Aşağıdakı cədvəldə Azərbaycan iqtisadiyyatına xarici investisiya qoyuluşlarının mənzərəsi ilə birbaşa tanış olmaq mümkündür (Cədvəl 4).

Cədvəl 4

**Xarici investisiyalar (mln. ABŞ dolları)**

| | 2010 | 2011 | 2012 | 2013 | 2014 | 2015 | 2016 |
|---|---|---|---|---|---|---|---|
| **Cəmixariciinvestisiya** | **8 247,8** | **8673,9** | **10314,0** | **10540,9** | **11697,7** | **10719,1** | **10161,1** |
| ocümlədən: | | | | | | | |
| **Maliyyəkreditləri** | **3 405,9** | **3692,5** | **3135,5** | **2655,8** | **1880,6** | **2210,2** | **2197,8** |
| **Neftsənayesinə** | **2 955,3** | **3407,8** | **4287,8** | **4935,2** | **6730,7** | **6622,7** | **5617,4** |
| **Birgə və xariciinvestisiyalımüəssisələr** | **659,6** | **886,0** | **1094,5** | **1041,0** | **1318,5** | **860,4** | **1706,2** |
| ondan: | | | | | | | |
| Türkiyə | 147,5 | 89,1 | 185,9 | 401,3 | 481,4 | 220,4 | 307,5 |
| Niderland | 163,5 | 173,3 | 186,4 | 141,6 | 103,8 | 85,9 | 127,9 |
| ABŞ | 40,0 | 73,8 | 92,5 | 24,4 | 89,3 | 18,9 | 38,2 |
| İran | 3,2 | 11,2 | - | - | 40,5 | 0,0 | 0,2 |
| Almaniya | 17,0 | 32,5 | 45,6 | 15,1 | 51,0 | 60,1 | 36,4 |
| Rusiya | 11,7 | 35,0 | 21,8 | 36,1 | 13,6 | 15,9 | 363,2 |
| BöyükBritaniya | 144,0 | 148,8 | 149,3 | 136,0 | 153,5 | 173,1 | 174,4 |
| BirləşmişƏrəbƏmirlikləri | 30,3 | 75,3 | 92,4 | 109,3 | 90,2 | 103,9 | 60,2 |
| İsveçrə | 11,7 | 26,7 | 79,4 | 18,2 | 18,9 | 15,7 | 370,5 |
| Fransa | 6,2 | 14,3 | 14,4 | 6,1 | 7,2 | 4,5 | 5,5 |
| Kipr | 1,6 | - | 6,6 | 5,4 | 0,2 | 1,1 | 0,1 |
| Çin | 33,5 | - | 6,7 | 5,7 | 9,7 | 3,3 | 1,5 |
| İtaliya | 10,3 | - | 22,1 | 21,3 | 21,2 | 14,6 | 11,6 |
| Pakistan | - | - | - | - | - | 0,0 | 0,0 |
| Yaponiya | 1,4 | 2,5 | 5,4 | 3,0 | 2,9 | 3,4 | 0,5 |
| Digər ölkələr | 37,7 | 203,5 | 186,0 | 117,5 | 235,1 | 139,4 | 208,5 |
| **Neftbonusu** | **2** | **19,9** | **2,0** | **2,4** | **17,0** | **2,0** | **0,1** |
| **Digər investisiyalar** | **1 225.0** | **667,7** | **1794,2** | **1906,5** | **1750,9** | **1023,8** | **639,6** |

Burada biz ilk növbədə qeyri-neft sektorunda investisiya qoyuluşlarının vəziyyəti ilə tanış olmalıyıq və ümumiyyətlə inkişaf dinamikasını analiz etməliyik. Ticarət və qeyri-neft sektorlarında əsas kapitala yatırılan investisiyaların məhdudluğu bu sektorlarda müasir texnologiyaların, yeniliklərin və yeni biznes imkanlarının çatışmazlığına, həmçinin yeni idarəetmə üsullarının tətbiqinin və müəssisələrin restrukturizasiyasının ləngiməsinə gətirib çıxarır. Bu isə, öz növbəsində, bu sektorların rəqabətqabiliyyətliliyinə mənfi təsir göstərir. Bu fakt göstərir ki, qeyri-neft sektorlarının rəqabətqabiliyyətliliyinin artması məqsədi ilə bu sahələrə sərmayələrin cəlb edilməsinə ehtiyac var.

2016-cı ilin yanvar-dekabr aylarında ölkənin xalis maliyyə aktivləri 7.2 mlrd.dollar artmışdır. Bu göstərici əsasən xaricə yönəldilmiş birbaşa investisiyalar (2573.6 mln. dollar), portfel investisiyaları (-44.3 mln. dollar), törəmə maliyyə alətləri (-0.7 mln.dollar) və digər investisiyalar (4715.8 mln.dollar) hesabına formalaşmışdır. Hesabat dövründə ölkənin xalis maliyyə öhdəlikləri isə 4.5 mlrd.dollar təşkil etmişdir ki, bu da xaricdən cəlb olunmuş xalis birbaşa investisiyalar (4499.6 mln.dollar), portfel investisiyaları (443.6 mln.dollar) və digər investisiyalar (-460.3 mln.dollar) hesabına formalaşmışdır.

Azərbaycanda xarici investisiyalardan istifadənin səmərəliliyinin artırılmasından danışmadan öncə səmərəlilik nədir, bu suala cavab vermək lazımdır. Səmərəliliyi, tələb edilən bir məhsulun yaranan əlavə dəyəri istehsal edə bilmə bacarığı kimi başa düşmək olar. Səmərəlilik, istehsal vasitələri və amillər miqdarı ilə istehsal miqdarı arasındakı əlaqələri ifadə etməkdədir. Daha yüksək səmərəlilik  eyni miqdarda mənbə ilə daha çox istehsal; eyni giriş ilə həcm və keyfiyyət baxımından daha inkişaf etmiş çıxış təmin etməkdir. Səmərəlilik, eyni zamanda, nəticələr ilə bu nəticələrə çatmaq üçün xərclənən zaman arasındakı əlaqədir. Səmərəlilik, müəyyən məqsədləri həyata keçirmək üçün istifadə edilən vasitə və ehtiyatların iqtisadi bir şəkildə istifadə edilməsinə bağlı bir anlayışdır. Xarici kapital qoyuluşlarının əhəmiyyətli miqdarda axını və inkişafı, ilk növbədə, əlverişli investisiya mühitinin formalaşdırılması istiqamətində həyata keçirilən dövlət səviyyəli tədbirlə sıx bağlıdır. Xarici investisiyaların həyata keçirilməsi və belə imkanların daha da təkmilləşdirilməsi üçün aşağıdakılar vacib şərtlər hesab edilməlidir, daha doğrusu, qloballaşma proseslərinə uyğun Azərbaycanda beynəlxalq sərmayə hərəkətlərinin istiqamətləri ilə bağlı olan bu problemlərin həll edilməsi məqsədəuyğun olardı:

- Əlverişli investisiya mühiti yaratmaqla, ölkəyə xarici investisiyaların axınının sürətlənməsinə şərait yaratmaq;

- Sərmayələrin hərəkətinin beynəlxalq təcrübəsində tətbiq edilən səmərəli formalardan geniş istifadə etməklə, ölkədə sənayeləşmə potensialı yaratmaq;

- İnkişafı tələb edilən sənaye sahələri üçün potensial xarici investorların axtarılması və cəlb olunması üzrə mövcud təşkilatların funksiyalarının vahid dövlət strukturunda cəmlənməsi və ya əlaqələndirilməsi;

- Ölkənin beynəlxalq konvensiyalara, müqavilələrə qoşulması və bir çox dünya dövlətləri tərəfindən qəbul olunan qaydalara əməletmə öhdəliyinin götürülməsi istiqamətində, həmçinin xarici investisiya siyasətində ölkənin milli və beynəlxalq mənafelərinin, dövlət və cəmiyyətin məqsədlərinin qorunması və uzlaşdırılması;

- Xarici investisiyaların tətbiqi və cəlb edilməsinin sənaye strukturunu səmərələşdirməklə, onların milli iqtisadiyyatın bütün sahələrinə istiqamətləndirilməsi;

- Birbaşa investisiyalarla yanaşı, ölkəmizə zəif cəlb olunan portfel investisiyalarının tətbiqi üçün əlverişli şərait yaratmaq, bunun üçün qiymətli kağızlar bazarını dünya standartlarına uyğun formalaşdırmaq, investisiyaların qorunması haqqında ikitərəfli sazişləri nəzərdən keçirmək;

- Xarici investisiya əməliyyatlarında gələcəkdə alınan gəlirlərin ilk kapital qoyuluşlarından fərqli olma ehtimalı mövcud olduğuna görə kapitalın bir valyutadan digərinə keçirilməsi, onun real səviyyəsinin qiymətləndirilməsi və investisiyaların xüsusiyyətlərinin nəzərə alınması təmin olunmalıdır. Çünki, beynəlxalq (birbaşa və portfel) investisiya əməliyyatlarında valyuta risklərinin idarə olunması məsələləri vacib amillərdən hesab olunmalıdır.

Azərbaycanın uzunmüddətli dövrdə dayanıqlı və tarazlı inkişafının təmin edilməsində investisiyaların cəlb edilməsi xüsusi rol oynayır. İnvestisiyaların tələb olunan həcm və keyfiyyətinin təmin edilməsi məqsədi ilə ölkədə investisiya mühitinin daha da yaxşılaşdırılması qarşıda duran əsas vəzifələrdəndir. Bunun üçün aşağıda qeyd olunan tədbirlər həyata keçirilir:

- şəxsi mülkiyyətin qorunması və korporativ idarə etmənin təkmilləşdirilməsi;
- mülkiyyətin formasından asılı olmayaraq bütün investorlar üçün daha əlverişli rəqabət mühitinin yaradılması;
- stabil normativ-hüquqi rejimin təmin edilməsi məqsədi ilə dövlətin rolunun artırılması, investisiya fəaliyyətinin normativ-hüquqi bazasının daha da təkmilləşdirilməsi;
- investisiya obyektlərinin seçimi və təhlili məqsədi ilə müəssisələr haqqında investorların məlumatlandırılması sisteminin yaxşılaşdırılması;
- əmanətlərin investisiyalara səmərəli transfor-masiyasını təmin edən müasir institusional infrastrukturun inkişafı prosesinə yardımın

artırılması;

- biznesin informasiya təminatının yaxşılaşdırılması, mühasibat uçotunun və statistikanın beynəlxalq standartlara uyğunlaşdırıl-ması.

Dünya iqtisadi ədəbiyyatında qəbul edən ölkənin iqtisadiyyatına birbaşa xarici investisiyaların təsirinin səmərəliliyinin müəyyən edilməsinin iki yanaşması fərqləndirilir. Birinci yanaşmaya görə birbaşa və ya portfel investisiyaları maddi əşya amillərinə birbaşa təsiri ilə müəyyən edilir. Burada başlıca şərt ondan ibarətdir ki, birbaşa xarici investisiyalar əməyin son məhsulunu artırır və kapitalın son məhsulunu azaldır. İkinci yanaşma sənayenin təşkili nəzəriyyəsi ilə əlaqədardır. Bu metod investisiya qoyuluşlarının dolayı və ya xarici səmərəsinə vurğu edir. Bu nəzəriyyənin tərəfdarları firmanın xaricə kapital qoyması, analoji əmtəə və ya xidmətləri öz ölkələrində istehsal etməməsi səbəbini öyrənməyə çalışırlar.Onların fikrincə BXİ-lar qəbul edən ölkənin iqtisadiyyatının əmək məhsuldarlığının artırılması və ixracın genişləndirilməsi əsasında iqtisadiyyatın inkişafını təmin edir. Xarici transmilli kompaniyalar və qəbul edən ölkələr arasında əlaqələr ölkələr və sahələr üzrə geniş məsafədə dəyişir. Xarici transmilli kompaniyaların əsas nəzəriyyələri onun üzərində qurulur ki, xarici istehsal və ticarət bir-birini qarşılıqlı əvəzedəndirlər. Xarici birbaşa investisiyaların axını yeni texnologiyaların tətbiqinə səbəb olur. Bu isə yerli firmaların mövcud resurslardan daha səmərəli istifadəsinə şərait yaradır. Əlbəttə, həmişə texnologiyanın verilmə effekti hesaba alınır. O, xarici xarakterli olub, qəbul edən ölkədə rəqabətin artmasına şərait yaradır. Beləliklə, birbaşa xarici investisiyalar və onunla birlikdə texnologiya, idarəetmə vərdişləri və i.a. milli firmaların istehsal metodlarının modifikasiyasına imkan verir. Məhz birbaşa investisiyalar axınını stimullaşdırmadan yeni texnologiyalar əldə oluna bilmir. Texnologiyaların alınması çox bahadır və əksər inkişaf edən və keçid dövrünü yaşayan ölkələr üçün əlçatmazdır. Beləliklə, birbaşa xarici investisiyalar yerli firmalar üçün texnologiyalar paketini artıran vasitədir. Yeni texnologiyaların yerli şəraitdə adaptasiyası mühüm faktdır. Daxili bazarda xarici TMK-lar yerli firmalar tərəfindən daha qüvvəli rəqabətlə qarşılaşırlar. Məsələn, texnologiyanın yayılmasından qorxaraq TMK daha aşağı keyfiyyətli texnologiya verə bilər. BXİ-ın qəbul edən ölkənin iqtisadiyyatına təsirinin qiymətləndirilməsinin əhəmiyyətli cəhətlərindən biri ondan ibarətdir ki, məcmu kapital fondunun həcminin xarici investisiyaların axını hesabına artması, yeni kapital qoyuluşlarını stimullaşdırır. Bu effekt xarici investisiyaların cəlb edilməsi hesabına kapital yığımının artması adlanır. Onun əksi milli investisiyaların xarici investisiyalarla sıxışdırılması effektidir. Birbaşa xarici investisiyaların

bütövlükdə kapital yığımı səviyyəsinə təsiri müxtəlif ölkələrdə milli siyasət, xarici investisiyaların formaları, milli kompaniyaların rəqabətqabiliyyətliliyindən asılı olaraq əhəmiyyətli dərəcədə dəyişir. Kapital qoyuluşunun artırılması effektinə nail olmaq üçün qəbul edən ölkədəki mövcud şəraiti nəzərə almaq lazımdır. Bunlara yeni əmtəələrin, xidmətlərin, texnologiyanın tətbiqi daxildir.

Azərbaycan iqtisadiyyatında istehsalın texniki səviyyəsinin yüksəldilməsi, mütərəqqi idarəetmə və informasiya texnologiyalarının tətbiqi üçün birbaşa kapital qoyuluşuna tələbatı çox yüksəkdir. Ona görə də, investisiya siyasətinin kompleksliliyinin artırılması ölkəmiz üçün birinci dərəcəli vəzifələrdən biridir. Bu məsələnin həllində ölkəyə xarici investisiyaların cəlb edilməsi prosesində iştirak edən dövlət strukturu mühüm rola malikdir. Həmin vəsaitlərin vasitəçisi və ya borc alan qismində dövlət konkret layihələrin prioritetliyini düzgün təyin etməli, iqtisadiyyatın sahələri arasında alınmış investisiyaların bərabər bölüşdürülməsini təmin etməlidir. Məlum olduğu kimi, Azərbaycan özünün təbii resursları və nisbətən yüksək iqtisadi potensialı ilə xarici iqtisadi əlaqələrin səmərəli inkişaf etdirilməsində əlverişli şəraitə malikdir. Ölkəyə, xarici investisiyaların axınına təsir edən şərait bir sıra kompleks amillərdən asılıdır. Bu amillər investisiya şəraitini təşkil edirlər. Həmin şəraitə ölkə iqtisadiyyatının vəziyyəti, sosial stabillik, mədəniyyət və digər amillər aid edilməlidir. Onlar xarici investorlar tərəfindən investisiya miqyası və istiqamətləri qəbul edildikdə nəzərə alınırlar. İnvestisiya mühitinə regionların obyektiv imkanları (investisiya potensialı) və investorun fəaliyyətinin mövcud vəziyyəti də (investisiya riski) daxildir. Regionların investisiya potensialına xüsusi fikir verilməlidir. Onlar praktiki olaraq texniki kömək şəklində kapitalın ixracı formasının bir növüdür. Belə formalara qarışıq sahibkarlıq, hər cür mümkün ola bilən texniki köməyin növləri kimi «xidmətə» kontraktların bağlanması aiddir.

Baxmayaraq ki, son nəticədə xarici kapital milli iqtisadiyyatın inkişafına, onun elmi-texniki səviyyəsinə təsir göstərir, «yeni investisiya formalarının» tətbiqinə qəbul edən ölkələr tərəfindən çox ehtiyatla yanaşılmalıdır, çünki o, gözlənilməz nəticələrə gətirib çıxara bilər. Azərbaycanda investisiya əməkdaşlığının potensial imkanlarının səmərəliliyi mütərəqqi forma olan lizinqdən istifadə edildikdə daha geniş açıla bilər. Son illərdə bu forma inkişaf etmiş ölkələrdə geniş yayılmışdır. O, həmin ölkələrdə investisiya fəaliyyətinin əsas mexanizmlərindən birinə çevrilmişdir. «Yeni investisiya formalarının» dünyada tətbiqi təcrübəsinin çoxcəhətliliyinin öyrənilməsi respublika iqtisadiyyatının dünya təsərrüfat sisteminə inteqrasiya prosesini güclən-

dirəcəkdir. Cəmiyyət üzvlərinin artmaqda olan sosial-iqtisadi tələbatının ödənilməsi mövcud istehsal potensialından tam və səmərəli istifadə edilməsini bir vəzifə kimi qarşıya qoyur. Bu baxımdan, xarici investisiya qoyuluşlarının rolu və əhəmiyyəti son dərəcə yüksəlmiş olur. Ölkədə makroiqtisadi göstəricilərin yüksəldilməsi Ümumi milli məhsulun strukturunda aparıcı sahələrin, xüsusilə, strateji sahələrin rol və əhəmiyyətinin getdikcə artırılmasını tələb edir. Bu cəhətdən, respublikaya xarici investisiya qoyuluşlarının artırılması və onun dövlət tərəfindən tənzimlənməsi, iqtisadiyyatın inkişafında lazımi proporsiyaların təmin edilməsi böyük elmi və praktiki əhəmiyyət kəsb edir.

Dissertasiya işinin əsas müddəaları, əldə olunan nəticə və təkliflər dərc olunmuş aşağıdakı elmi əsərlərdə öz əksini tapmışdır:

1. Yeni iqtisadi sistemə keçid dövründə neft sənayesinin inkişafı. Aspirantların və Gənc Tədqiqatçıların Elmi Konfransının Materialları. Bakı, 1998-ci il. S.115.
2. Azərbaycanın neft sənayesinin inkişaf mərhələləri. Neft və Azərbaycanın gələcəyi. Bakı, 1998-ci il. S.165-172.
3. Azərbaycan milli iqtisadiyyatının formalaşmasında neft sənayesinin rolu. Aspirantların və Gənc Tədqiqatçıların Respublika Elmi Konfransının Materialları. Bakı, 1999-cu il. S.151.
4. Azərbaycan iqtisadiyyatının inkişafı üçün xarici kapital qoyuluşunun zərurəti. Aspirantların və Gənc Tədqiqatçıların VI Respublika Elmi Konfransının Materialları. Bakı, 2000-ci il. S.93-94.
5. Azərbaycan iqtisadiyyatına kapital qoyuluşlarının ümumi analizi. "Beynəlxalq hüquq və inteqrasiya prosesləri". № 3(43)2015, Bakı. S.222-226.
6. Azərbaycan Respublikası iqtisadiyyatının investisiya münbitliyinin ümumi dəyərləndirilməsi. "Beynəlxalq hüquq və inteqrasiya prosesləri" № 4(44). Bakı, 2015. S.271-273.
7. Kapitalın beynəlxalq iqtisadi inkişafda rolu. "Təfəkkür" elmi xəbər jurnalı № 1(10), Bakı, 2016. S.19-28.
8. Взгляд на динамику иностранных инвестиций, вложенных в экономику Азербайджанской Республики. Научно-практический журнал "Современная наука". Актуальные проблемы теории и практики. Серия экономика и право. № 5. Москва, 2016 май. S.37-40.
9. İnvestisiya qoyuluşlarının keyfiyyət dərəcəsi və mexanizmlərin təkmilləşdirilməsi məsələləri. "Təfəkkür" elmi xəbər jurnalı № 3(12), Bakı, 2016. S.12-18.
10. Общий анализ некоторых теоритических оценок связанных с понятием и сущностью капитала. Научно-практический журнал "Современная наука".Актуальные проблемы теории и практики.Серия

экономика и право.№ 10, Москва,2016октябрь. S.3-6.

**АЗАД ФАИК оглы КАСУМОВ**

**Роль иностранного капитала в формировании и развитии национальной экономики Азербайджана**

## РЕЗЮМЕ

В введении обосновывается актуальность темы, анализируется степень изученности проблемы, определяется предмет и объект исследования, излагается научная новизна работы.

Первая глава диссертации называется «Капитал, научно-методолические основы и практические направления его международного движения». Здесь проанализированы концепция капитала и ее различные теоретические аспекты, определены различия особенности таких категорий как «капитал», «экспорт капитала» и «инвестиции». На основе международного опыта автором исследованы эволюция международного движения капитала, его причины и факторы, раскрыт механизм реализации международного движения капитала.

Во второй главепод названием «Нынешнее положение привлечения инвестиций в экономику Азербайджана» сделан анализ положения влияния иностранных инвестиций на развитие национальной экономики и определены факторы, усиливающие инвестиционную привлекательность страны. В этой главе также изучены тенденции развития прямых иностранных инвестиций, вложенных в нефтяной и ненефтяной сектор национальной экономики.

Третья глава диссертации называется «Оценка и совершенствование иностранных инвестиционных вложений в национальную экономику Азербайджана». Основное внимание в этой главе сосредоточено на вопросах роли иностранного капитала в развитии инновационно-ориентированных сфер в ненефтяном секторе, также выявлены пути повышения эффективности использования иностранных инвестиций в Азербайджане и основные направления совершенствования механизмов государственного регулирования инвестиций в экономику Азербайджана.

В заключении обобщаются результаты работы и выдвигаются рекомендации и предложения по повышению роли иностранного капитала в развитии национальной экономики в нашей республике.

**AZADFAİQ ogluQASIMOV**

# The role of foreign capital in forming and development of the national economy of Azerbaijan

## SUMMARY

In the introduction, the relevance of the topic is substantiated, the degree of study of the problem is analyzed, the subject and object of research is determined, and the scientific novelty of the work is stated.

The first chapter of the dissertation is called "Capital, scientific and methodological foundations and practical directions of its international movement." The concept of capital and its various theoretical aspects are analyzed here, distinctions of features of such categories as "capital", "export of capital" and "investments" are determined. Based on international experience, the author has studied the evolution of the international capital movement, its causes and factors, and disclosed the mechanism for realizing the international movement of capital.

In the second chapter, entitled "The current situation of attracting investments in the economy of Azerbaijan", an analysis of the impact of foreign investment on the development of the national economy was made and factors that enhance the investment attractiveness of the country were identified. This chapter also examines trends in the development of foreign direct investment in the oil and non-oil sector of the national economy.

The third chapter of the thesis is entitled "Assessment and improvement of foreign investment in the national economy of Azerbaijan". The main attention in this chapter is focused on the role of foreign capital in the development of innovation-oriented spheres in the non-oil sector, as well as ways to increase the efficiency of using foreign investments in Azerbaijan and the main directions for improving the mechanisms of state regulation of investments in the economy of Azerbaijan.

In conclusion, the results of the work are summarized and recommendations and proposals are made to increase the role of foreign capital in the development of the national economy in our republic.

**МИНИСТЕРСТВО ОБРАЗОВАНИЯ АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ**
**БАКИНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ**

***На правах рукописи***

**АЗАД ФАИК ОГЛЫ КАСУМОВ**

# РОЛЬ ИНОСТРАННОГО КАПИТАЛА В ФОРМИРОВАНИИ И РАЗВИТИИ НАЦИОНАЛЬНОЙ ЭКОНОМИКИ АЗЕРБАЙДЖАНА

**5308.01 - «Общая экономика»**
**5307.01 - «Экономическая теория»**

**АВТОРЕФЕРАТ**

**диссертации на соискание научной степени доктора философии по экономике**

**Баку - 2017**